*Beynəlxalq hüquq*

# Azərbaycanla Avropa İttifaqı arasında iqtisadi və humanitar sahələrdə əməkdaşlıq

Azərbaycan Respublikasının xarici siyasət konsepsiyasında xüsusi yer tutan nüfuzlu Avropa regional təşkilatlarından biri də Avropa İttifaqıdır. Avropa İttifaqı inteqrasiya proseslərinin müasir mərhələsinin ən yetkin formasıdır. Belə ki, 1992-ci il Maastrixt sazişinə əsasən vahid sosial məkan yaradılırdı ki, həmin məkanda yaşayanlar milli vətəndaşlığı saxlamaqla yanaşı, həm də Avropa İttifaqı vətəndaşı hesab olunurdular (1).

Avropa İttifaqı üç əsas üzərində yüksəlir:

- Avropa Birliyi əlavələrlə və yeni əməkdaşlıq formaları ilə zənginləşirdi (Avropa Birliyinə dair Müqavilə 17 protokol və 33 bəyanatla tamamlanmışdı);
- xarici siyasət və beynəlxalq təhlükəsizlik sahəsində birgə fəaliyyət;
- daxili və hüquqi siyasət sahəsində əməkdaşlıq (2).

İnteqrasiya proseslərinin son sözü olan Avropa İttifaqının tarixi təcrübəsi Azərbaycanın qarşılaşdığı həlli müşkülə çevrilmiş bir sıra problemlərin açarıdır. Fikrimizcə, Azərbaycanın Avropa İttifaqı sıralarına qoşulmasını şərtləndirən amillərə bunları aid etmək mümkündür:

Davosda keçirilmiş görüş zamanı Azərbaycan iqtisadiyyatının bütün sahələrinin, demokratik institut və təsisatların inkişafı ilə əlaqədar geniş diskussiya aparılmış, TASİS proqramı üzrə konkret əməkdaşlığın prespektivləri müəyənləşdirilmişdi. Danışıqların gedişində hərbi əməliyyatlar nəticəsində dağıdılmış yaşayış məskənlərinin bərpası məsələsinə də toxunulmuş, TASİS proqrammı çərçivəsində Füzuli rayonundakı yaşayış məskənlərinin bərpası ilə əlaqədar pilot layihəsinin hazırlanması razılaşdırılmışdı (3).

1996-cı ilin yanvarından etibarən TASİS proqramının fəaliyyəti haqqında MDB məkanında müntəzəm informasiya mübadiləsi təşkil etmək məqsədilə «TASİS yenilikləri» adlanan aylıq bülletenin nəşrinə başlandı. Rus dilində nəşr olunan həmin bülletendə Azərbaycan haqqında da geniş materiallar verilirdi, Bakı şəhərində isə TASİS-in əlaqələndirmə bürosu fəaliyyət göstərir (4).

Bununla belə, Azərbaycana münasibətdə Avropa Birliyinin ədalətli mövqe tutmasından danışmaq hələ tezdir. Belə ki, Qarabağ müharibəsi Avropa Birliyinin başlıca orqanı olan Şuranın gündəliyində diqqət mərkəzində saxlansa da, qəbul olunmuş bütün bəyanat və müraciətlərdə tərəflər atəşi dayandırmağa və danışıqlar stolu arxasına dəvət olunsa da, Ermənistanın təcavüzkarlığına göz yumulmuş, təcavüzkara münasibət bildirilməmişdir (5).

Avropa Birliyinin rəsmi statistikasına görə, 700 min qaçqın və köçkününün olduğu Azərbaycana 1996-cı ilin oktyabrında (6 ay üçün) 200 min ekyü yardım ayrılmışdısa, 280 min köçkünün olduğu Gürcüstana 2 mln. ekyu, 380 min qaçqın və köçgünün olduğu Ermənistana isə 1 mln. eyku yardım ayrılmışdı (6). Şübhəsiz ki, Azərbaycana belə münasibət ölkəmizlə Avropa Birliyi arasında əməkdaşlığın dərinləşməsinə mənfi təsir göstərirdi.

TASİS proqramının maliyyələşdirildiyi qlobal layihələrdən biri də TEMPUS proqramıdır. TEMPUS yeni müstəqillik qazanmış ölkələrlə (Monqolustan da daxil olmaqla) ali təhsil sahəsində Transavropa əməkdaşlığı proqramıdır. Avropa Birliyi dövlətlərinin hər biri tərəfindən ayrı-ayrılıqda maliyyələşdirilən TEMPUS proqramının yaradılmasında məqsəd Avropa ali təhsil sisteminin iştirakı ilə təzəcə müstəqillik yolu götürmüş ölkələrdə bu istiqamətdə iş birliyinin yaradılmasına və inkişafına nail olmaqdır.

Azərbaycanın ali məktəblərindən Bakı Dövlət Universiteti «Avropa Xəzər dənizi» proqramına əsasən TEMPUS-un fəaliyyətində iştirak edir. TEMPUS proqramına qoşulmaq nəticəsində respublikamızın ali təhsil sistemi qabaqcıl Avropa təcrübəsinə yiyələnmək, müəllim və tələbə mübadiləsi həyata keçirmək, yüksək ixtisaslı mütəxəssislər və texnika ilə təchiz olunmaq imkanları əldə etmişdir (7).

1997-ci il iyulun 20-26-da Azərbaycan nümayəndə heyəti Avropa Birliyinin TASİS proqramı üzrə Parisdə keçirdiyi seminarda iştirak etmiş və səfər zamanı Azərbaycanda energetika sənayesinin, neft və qaz yanacaq növləri ilə təchizatın perspektivlərinə dair 4 layihə hazırlanmışdı (8). Müzakirə olunan və sonradan paraflanmaq üçün Milli Məclisə təqdim edilən qanun layihələri iqtisadiyyat, sosial həyat, ətraf mühitin qorunması, energetika, neft və qaz sahəsində təhlükəsizlik, sağlamlıq, sığorta, vurulan zərərlərin ödənilməsi şərtləri və s. problemləri əhatə edir.

Azərbaycanda həyata keçirilən aqrar islahatlara texniki kömək məqsədi ilə 1997-ci il iyulun 28-29-da Avropa Birliyi Komissiyasının Brüsseldə «TASİS» proqrammı çərçivəsində «Aqrobiznesin müdafiəsi üçün regional pilot (nümunəvi) bölməsi» layihəsi üzrə qiymətləndirmə komitəsinin Azərbaycan nümayəndələrinin iştirakı ilə xüsusi müşavirəsi keçirildi ki, burada Azərbaycana kömək üçün ümumi məbləği 1,3 mln. ekyü dəyərində layihə birlik üzvləri arasındakı geniş müzakirədən sonra təsdiq olundu (9).

Komitənin iclasında Azərbaycana ayrılan 1,3 mln.-ekyü məbləğində texniki yardımın reallaşdırılması üçün

tender keçirilmişdi. Müxtəlif Avropa ölkələrindən 7 şirkətin iştirak etdiyi tenderdə İngiltərənin «Tera konsaltinq» şirkəti qalib çıxmış və layihənin reallaşdırılması üçün Azərbaycanda fəaliyyətə başlamışdır (10).

Avropa Komissiyasının Azərbaycana göstərdiyi yardımın səmərəliliyini, effektivliyini və yardım haqqında məlumatı yamaq üçün Komissiya 2002-ci ilın sentyabr ayından etibarən Bakıda Avropa Evini açmağı qərara almışdır. Milli Koordinasiya Bürosu və Azərbaycanda TASİS layihələrinin Milli Koordinatorunun icraçı ofisi ilə sıx əlaqədə işləyən Avropa Evi Avropa İttifaqının Azərbaycanda həyata keçirdiyi proqram və layihələri dəstəkləyir.

Avropa İttifaqı və tərəfdaş ölkələr arasında ikitərəfli əlaqələr Tərəfdaşlıq və Əməkdaşlıq Sazişləri (TƏS-lər) vasitəsilə formalaşmışdır. Hazırda on Şərqi Avropa və Mərkəzi Asiya ölkəsi ilə Tərəfdaşlıq və Əməkdaşlıq Sazişləri qüvvədədir. Hər TƏS Avropa İttifaqı və fərdi ölkə tərəfindən imzalanmış və ratifikasiya olunmuş onillik ikitərəfli sazişdir. Bu saziş 22 aprel 1996-cı ildə imzalanmış, 8 oktyabr 1996-cı ildə isə Azərbaycan tərəfindən təsdiq edilmiş, 1 iyul 1999-cu ildə qüvvəyə minmişdir.

18 may 2004-cü ildə Aİ-nin 10 yeni Üzv Dövlətinin Aİ və Azərbaycan Respublikası arasında Tərəfdaşlıq və Əməkdaşlıq Sazişinə qoşulmasına dair protokolun imzalanmasından sonra əsas məqsədlər müəyyənləşdirilmişdir.

Texniki Yardım proqramı olan TACİS Yeni Müstəqil Dövlətləri və Monqolustan üzrə Avropa İttifaqının proqramıdır. TACİS Avropa İttifaqı YMD tərəfdaş ölkələri arasında iqtisadi və siyasi əlaqələrin inkişafını təşviq edir. TACİS biliklərin ötürülməsi bazar iqtisadiyyatına və demokratiyaya keçid prosesini dəstəkləmək üçün qrant təmin edir. 1991-ci ildə texniki yardım proqramı kimi başlamış proqramın çərçivəsində 116,5 milyon avro dəyərində vəsait ayrılmışdır. TACİS «Tərəfdaşlıq və Əməkdaşlıq Sazişi» əsasında əməkdaşlıq alətinə çevrilmişdir.

Avropa İttifaqının regional proqramları içərisində Avropa-Qafqaz-Asiya Nəqliyyat Dəhlisi (TRACECA) xüsusilə mühüm əhəmiyyətə malik olub gələcək yüzilliklərin dərinliklərinə istiqamətlənmişdir. Qafqazdan keçərək Avropanı Mərkəzi Asiyaya, marşrut boyu yerləşən bütün ölkələrə bağlayan Şərq-Qərb nəqliyyat dəhlizinin qurulmasına texniki və sərmayə yardımını göstərmək TRASEKA-nın əsas məqsədidir.

1993-cü ildə Avropa Komissiyası və Azərbaycan, Ermənistan, Gürcüstan, Qazaxıstan, Tacikstan, Türkmənistan və Özbəkistan dövlətlərinin hökumətləri Brüssel Bəyannaməsində Proqramın məqsədlərini müəyyən etmişlər. TRASEKA ölkələri üçün nəqliyyat sistemlərinin inkişaf etdirilməsi və dünya bazarlarına çıxışın əldə edilməsi üçün bu proqramın əməli həlli yollarını təklif etmişdir. Ukrayna Moldova, Bolqarıstan, Rumıniya və Türkiyə də sonradan bu proqrama qoşulmuşdur.

Hazırda proqram 13 ölkəni əhatə edir. 1998-ci ildə 12 ölkə Azərbaycan, Ermənistan, Bolqarıstan, Gürcüstan, Qazaxıstan, Qırğızıstan, Moldova, Rumıniya, Tacikistan, Türkiyə, Ukrayna və Özbəkistan Bakı Konfransında Avropa-Qafqaz-Mərkəzi Asiya Dəhlizi boyu beynəlxalq nəqliyyatın inkişafına dair əsas çoxtərəfli sazişi imzalamışlar. Beləliklə, nəqliyyat sahəsində regionlararası əməkdaşlığın inkişaf etdirilməsi üçün TRASEKA proqramı vahid hüquqi mexanizmə malik olmuşdur. Qeyd edək ki, bu yaxınlarda Əfqanıstan da bu Sazişə qoşulmuş, İran və Pakistan isə sazişi imzalamaq ərəfəsindədirlər.

Birləşmiş Millətlər Təşkilatının Avropa İqtisadi Komissiyası və BMT-nin Asiya və Sakit Okean üzrə İqtisadi və Sosial Komissiyası öz missiyalarını yerinə yetirmək və iş təcrübələrini tətbiq etmək baxımından TRASEKA layihələrində iştirak edirlər.

İNOQEYT Avropaya Dövlətlərarası neft və qaz nəqliyyatı (İNOQEYT) proqramının məqsədi neft və qaz kəmərləri sistemlərinin regional inteqrasiyasını təmin etmək və onların nəqlini dəstəkləməkdir. Proqram özəl sərmayəçiləri və beynəlxalq maliyyə təşkilatlarını bu kəmərlər üzrə layihələrin həyata keçirilməsinə cəlb etmək üçün katalizator rolunu oynayır. Azərbaycanda İNOQEYT proqramını Şirvanovka və Qazax qaz paylayıcı sistemlərində tətbiq olunur.

***Anar OSMANOV,***
*Bakı Dövlət Universiteti Beynəlxalq münasibətlər kafedrasının magistri*

***Ədəbiyyat***

*1. Шреплер Х.А. Международные организации. Спр. М., 1995. с. 151-165; Европеиское сообшество ваш сосед. 1992. с. 3-11.*

*2. Yenə orada. s. 151..*

*3. Европеиски Обзор, 1996, октябрь, № 36, с. 10-11.*

*4. Европейскии Обзор, 1996, январь, № 28, с. 16.*

*5. Сборник документов меъдународных организации, совещании и форумов по армяно-Азербайдъанскому конфликту (1992-1995). Б., 1996. с. 130-136.*

*6. Еропеиски Обзор, 1996, октябрь, № 36, с. 14.*

*7. «Azərbaycan» qəzeti, 1996, 12 marta; İnternet: 14.124.1996. TACİS annual report. s.1..*

*8. İnternet. DG1A. Rilctions ivith n/3 and Mongolia.*

*9. Azərb.Respub. XİN arxivi. Azərbaycan-Avropa İttifaqı əməkdaşlığı. (Arayış). s. 2.*

*10. Dirçəliş XXI əsr, 2004, №4, s.128.*